# Azərbaycanla BMT arasında iqlim dəyişikliyinin təsirləri müzakirə edilib

Azərbaycanın BMT yanında daimi nümayəndəsi Tofiq Musayev və BMT-nin Əhali Fondunun Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Florens Bauer iqlim dəyişikliyinin nəticələrini müzakirə ediblər. "Report"un məlumatına görə, bu barədə dünya təşkilatının nümayəndəsi özünün "X" sosial şəbəkəsindəki səhifəsində yazıb.



Azərbaycanın BMT-dəki yeni daimi nümayəndəsi, səfir Tofiq Musayevlə görüşmək mənim üçün böyük şərəfdir. COP29-dan sonra iqlim dəyişikliyinin reproduktiv sağlamlığa təsirini müzakirə etdik", - deyə F.Bauer qeyd edib. Tərəflər həmçinin Azərbaycanda demoqrafik dayanıqlığın artırılması üzrə birgə işi müzakirə ediblər.

Azərbaycan.- 2025.- 31 yanvar (№ 21).- S.5.